Sentyabrın 5-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində Budapeşt şəhərində keçirilən Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasında iştirak edib.

İclasda çıxış edən nazir müavini iki ölkə arasında elm və təhsil sahəsində mövcud əməkdaşlığın cari vəziyyəti barədə iclas iştirakçılarını məlumatlandıraraq Türk Dövlətləri Təşkilatı çərçivəsində elm və təhsil sahəsində ölkələrimiz arasında birgə əməkdaşlıq, Azərbaycan Respublikası ilə Macarıstan Respublikası arasında Hökumətlərarası Təqaüd Proqramları, ali təhsil müəssisələri arasında əməkdaşlıq və bu kimi bir sıra digər mühüm məsələlərə toxunub. Nazir müavini bildirib ki, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin icrası və təcrübə mübadiləsinin həyata keçirilməsi üçün geniş imkanlar mövcuddur.

Komissiyanın iclasında həmçinin iki ölkə arasında iqtisadi, ticarət, enerji, kənd təsərrüfatı eləcə də mədəniyyət sahələrində əməkdaşlığın mövcud vəziyyəti və potensial imkanları müzakirə olunub.

İclasın sonunda Hökumətlərarası Komissiyanın həmsədrləri tərəfindən iclasın yekunlarına dair Protokol imzalanıb.